**İran İslam Respublikasında İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Planlaşdırma Şurasının 23-cü toplantısı keçirilmişdir.**




Dövlət Statistika Komitəsinin nümayəndələri Məlumatların yayılması şöbəsinin müdiri Meri Əmirova və həmin şöbənin baş məsləhətçisi Hicran Mahmudova 2013-cü ilin 6-8 may tarixlərində İran İslam Respublikasında keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Planlaşdırma Şurasının 23-cü toplantısında iştirak etmişlər. Toplantıda İƏT-ə daxil olan on ölkənin nümayəndəsi iştirak etmişdir. Azərbaycan nümayəndəliyinə ölkəmizin İran İslam Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Cavanşir Axundov rəhbərlik edirdi. Nümayəndə heyəti Dövlət Statistika Komitəsinin, Xarici İşlər, İqtisadi İnkişaf, Nəqliyyat, Daxili İşlər, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər, Rabitə və İnformasiya Texnologiyaları nazirliklərinin mütəxəssislərindən ibarət olmuşdur.

Toplantının birinci günündə İƏT-in Baş katibi Şamil Ələsgərovun İƏT-in 2012-ci ildə fəaliyyəti haqqında hesabatı dinlənilmişdir.

Birinci plenar iclasda on ölkənin nümayəndə heyətinin rəhbərləri Regional Planlaşdırma Şurasının 22-ci iclasında qəbul edilmiş qərarların yerinə yetirilməsi haqqında hesabat vermişlər.

İclasın giriş hissəsindən sonra 2013-2014-cü illər üçün ayrı-ayrı sahələr üzrə nəzərdə tutulmuş fəaliyyət planları müzakirə edilmişdir. Müzakirələr nəqliyyat və kommunikasiya, kənd təsərrüfatı, sənaye və turizm, energetika, mineral resurslar və ətraf mühitin qorunması, ticarət və investisiyalar, narkotiklərə və mütəşəkkil cinayətkarlığa nəzarət, insan resursları və davamlı inkişaf sahəsində aparılmışdır.

Qeyd olunmuşdur ki, əməkdaşlıq çərçivəsində Katiblik tərəfindən 342 göstəricini əks etdirən ECOSTAT məlumat bazası yaradılmışdır.

Toplantının üçüncü günü Regional Planlaşdırma Şurasının 23-cü iclasının hesabat layihəsinin hazırlanmasına və onun qəbul olunmasına həsr olunmuşdur.